"yox" cavabı verirlər. Səbəb onların qəlbindən sevgi və inam hissinin (oxu: faylının) silinməsidir. Belə ki, kompyuterlərimizə düşən virus ondakı fayl və proqramları necə silirsə, insana daxil olan neqativ enerji də qəlblərdən sevgi və inam faylını elə silir. Bu proses orqanizmin müxtəlif nahiyyələrində səbəbi bilinməyən ağrılarla müşahidə olunur. Nəticədə, belə qızlar ətrafdakıların təzyiqi Ilə ailə qursalar da, onlardan doğulan uşaqlar başqalarına nisbətən çirkin, bəzi hallarda isə, xəstə və zəif olurlar.

Sual yaranır: neqativ təsirə niyə məhz zərif cinsin nümyanəndələri məruz qalırlar?

Qeyd edək ki, neqativ enerji kişilərə də təsir edir. Lakin, qadın ruhu həssas və zərif olduğundan, onlara daha tez və güclü təsir göstərir.

Qadınların daha çox neqativə yüklənməsinin digər səbəbi onların geyimləri və gözəllikləri ilə bağlıdır. Belə ki, zərif cinsin nümayəndələri daim geyim-kecimli və baxımlı olduqlarından, bəzi insanların (hətda əks cinsin də) gözündə olan Selen maddəsinin şüasına məruz qalırlar. Bu şüa, neqativ enerji şəklində qadınların bədəninə hopa və yuxarıda sadaladığımız fəsadları törədə bilir.

Qadınların bu enerjiyə yoluxmasının digər səbəbi, cəmiyyətdə magiyanın geniş yayılması və insanların (özəlliklə də qadınların) biri-birlərinə qarşı bu qara enerjidən istifadə etməsidir ki, bu halda da yuxarıda sadaladığım fəsadlar baş verir...

Araşdırmalarımız göstərir ki, neqativ enerji insana bir çox hallarda irsən keçir. Yəni, fiziki qanunlara uyğun ola-

raq, enerji heç vaxt itmir; birindən digərinə keçir. Bir zamanlar valideynlərdə olan neqativ enerji, onlar öldükdən sonra, övladlarında davam etməyə başlayır (bu, hazırda ən çox yayılmış haldır və aşağıda geniş bəhs edəcəyik). Fikir versəniz görərsiniz ki, hansı ailədə ağır xəstəlikdən, intihardan dünyasını dəyişən varsa, çox keçmir ki, həmin ailənin digər üzvü ağır xəstələnir. Bunun ilk əlamətləri qorxu, həyəcanla başlayır, getdikcə (qarşısı alınmadıqda) ağır və sağalmaz xəstəliklərə səbəb olur.

Yuxarıda qeyd etdiyimiz kimi, neqativ enerji uşağa həm də ana bətnində olarkən yoluxur və uşq böyüdükcə özünü (əsəb, immunitet zəifliyi, qorxu və s. formada) büruzə verməyə başlayır.

Bəs bütün bunlardan necə xilas olmaq olar?

Tibb elmi neqativ enerjiyə qarşı vasitə kəşf etməsə də, bizim tətbiq etdiyimiz seanslarla bu qara enerjidən və onun yaratdığı fəsadlardan (əsəbdən, sancılardan, ağrılardan, ostroxondrozdan, şişlərdən və s) xilas olmaq mümkündür. Bütün bu neqaiv əlamətlərdən xilas olan qızda məhəbbət hissi bərpa (vostonovit) olur və o sevərək ailə qurur. Hamiləlik dövründə heç bir ağrı, depressiv hal keçirmir. Beləliklə də, doğulan uşaqlar daha yaraşıqlı, əsəbləri sakit və ağıllı olurlar.

Onu da qeyd edək ki, bu müalicə metodunda heç bir dərman vasitəsindən istifadə edilmədiyinə görə, hamiləliyə heç bir əks təsir göstərmir. Odur ki, hamiləlik dövründə də bu seansları qəbul etmək mümkündür.

**Dr. Paşa Yaqub**
**(moderator.az)**





## Valideyndə olan irsi xəstəliklərin sizə keçməməsi üçün, bunları bilməlisiniz

Məlumdur ki, bəzi xəstəliklər insana irsən keçir. Amma, tibb elmi bugünədək izah edə bilmir ki, valideynlərdə olan xəstəlik niyə övladlardan hamısına deyil, məhz birinə keçir? Necə etmək olar ki, xəstəlik irsən keçməsin? Övlad valideyndə olan irsi xəstəlikdən necə yayına bilər? Bu suallarla əməkdaşımız psixoloq, elmi-lədun bilicisi **Paşa Yaqub**a müraciət edib və çox maraqlı cavablar alıb. Həkimin cavablarını moderator.az saytının oxucularına təqdim edirik:

- Araşdırmalarımız və həkimlik təcrübəmiz göstərir ki, bütün xəstəliklərin özülünü (fundamentini) neqativ enerji təşkil edir. Yəni, xəstəliyi binaya bənzətsək, onun fundamentini neqativ enerji təşkil edir. Ona görə də bir çox xəstəliklər müalicəyə tabe olmur və irsən övlada ötürülür. Bu cür hallar kimyəvi dərmanların neqativ enerjiyə təsirinin olmaması ilə əlaqədardır. İndi qayıdaq sizin sualınıza ki, valideyndə olan xəstəlik övlada necə keçir? İlk öncə başlayaq anadan keçən xəstəlikdən. Qeyd edim ki, anada olan xəstəliklər və digər sinir problemləri (əsəb, qorxu, baş, onurğa və s. ağrılar) hamiləlik dövrü qabarmağa başlayır. Yuxarıda qeyd etdim ki, bu kimi problemlərin hamısının kökündə neqativ enerji dayanır. Fizikanın qanununa görə enerji heç vaxt itmir, bir haldan başqa hala, birindən digərinə keçir. Hamilə qadında olan, virus xarakterli bu qara enerji mütləq şəkildə bətndəki uşağa yoluxur. Nəticədə uşaq

doğulandan sonra, ana özünü çox yüngül və ağrısız hiss edir. Tibb elmi bu yüngüllüyü uşağın doğulması ilə bağlasa da, əslində belə deyildir. Araşdırmalarımız göstərir ki, bu yüngüllük neqativ enerjinin anadan uşağa ötürülməsi və uşaqla bərabər bədəndən xaric edilməsi ilə əlaqədardır. Nəticədə, anada olan bütün xəstəliklərin, əsəbin, qorxunun... kodları yüklənmiş bir uşaq dünyaya gəlir. İlk yaşlarda uşaqda neqativ enerji özünü göstərməyə bilər. Bəzi ağır hallarda uşaqda 3-4 yaşdan sonra əsəb, sinir pozğunluğu, qorxu, həyəcan və s. kimi biruzə verir. Yüngül hallarda isə, uşaq yetkinlik yaşına çatanda, cinsəl oyanış baş verəndə bu enerji özünü qabarıq şəkildə göstərməyə başlayır. Bu vaxt, ananın gənclikdə keçirdiyi bütün neqativ hallar və ağrılar, xəstəliklər uşaqda görünməyə başlayır. Nəticədə, uşaq ananın taleyini yaşayır, xəstəliklərinin irsi daşıyıcısına çevrilir...

***- Doktor, bu hallar əsasən, hansı uşaqda özünü göstərir? Ola bilərmi ki, ananın xəstəliyi uşaqlardan birinə keçsin, digərinə keçməsin?***

- Neqativ enerjinin bu cür ötürülməsi ən çox birinci uşaqda baş verir. Çünki, ana ilk hamiləliyinə qədərki illərdə ətraf mühitdən yığdığı neqativ enerjiləri (ağrıları və xəstəlikləri) əsasən birinci uşağa ötürür. Sonrakı hamiləlik dövrlərində analar nisbətən yüngülləşmiş olurlar ki, nəticədə doğulan uşaqlar da əsasən sakit, əsəbsiz və ağrısız olurlar. Lakin, bəzi hallarda bunun əksi də görünə bilir. Yəni, ana birinci hamiləliyini normal keçirib, tam sağlam uşaq dünyaya gətirdiyi halda, sonrakı hamiləliyini gərgin keçirib, xəstə uşaq dünyaya gətirə bilir. Bu, o vaxt baş verir ki, anaya neqativ enerjinin yüklənməsi





birinci doğuşdan sonrakı illərdə baş verir. Kompyuterlərə virus göndərilməsinə bənzəyən bu cür yüklənmə, bir çox hallarda qəsdən baş verir. Yəni, ətrafındakı paxıl insanlar anaya qəsdən neqativ enerji yükləyirlər ki, bununla da sonrakı hamiləlik dövrləri gərgin keçə və nəticədə xəstə uşaq doğula bilir. Anada olan ağrılar və narahatlıqlar nə vaxtdan başlayırsa, onun irsən keçməsi də, həmin vaxtdan sonra doğulan uşaqlarda baş verir. Uşaq bətndə olanda bu xəstəliklərin virusu (enerjisi) ona yoluxur.

***- Paşa doktor, anada olan xəstəliklərin irsən keçmə mexanizmini şərh etdiniz, bəs, atadan övlada irsi xəstəliklər necə keçir? Bunun da bir mexanizmi varmı?***

- Xəstəliyin atadan övlada ötürülməsi tam fərqlidir. Araşdırmalarımız göstərir ki, bu cür ötürülmə çox vaxt atanın ölümündən sonra baş verir. Yəni ata dünyasını dəyişəndən sonra, ondakı xəstəliyi yaradan neqativ enerji ölmür. Fizikanın qanunlarına uyğun olaraq, bu enerji (ağırlıq) övladlardan birinə ötürülür.

***- Maraqlıdır, hansı övlada ötürülür? Bəlkə atanın məsələn, on övladı var, bunların hamısınamı neqativ enerji ötürülür, yoxsa, ancaq birinə ötürülür?***

- Araşdırmalarımız göstərir ki, bu enerji öncə övladlardan birinə ötürülür. O övlada ötürülür ki, sağlığında ataya ən yaxın idi və atadan sonra ailənin yükü onun üzərinə düşüb. Bu vaxt övladın vəziyyəti ağırlaşır. Baş, bel və s. yerlərində mütəmadi ağrılar olur. Qorxu (diksinmə), həyəcan, əsəb və s. sinir pzğunluqları müşahidə edilir. Bu halda tibbi yolla aparılan müalicələr effektsiz olur. Müalicələr qismən effekt versə də, bir müddətdən

sonra ağrılar təkrar baş qaldırır. Bu övlad həmin nqativ enerjidən xilas olmadan dünyasını dəyişərsə, enerji digər, ona ən yaxın olan və ailənin yükünü çəkən digər övlada keçir... Beləliklə, xətəliklər irsən bu cür davam edir.

### Ölünü yuxuda görmək o deməkdir ki, yuxu görənin həyatına təhlükə var

**-Doktor, siz xəstəliklərin valideynlərdən irsən keçmə yollarını izah etdinniz. Bəs, ailənin digər üzvlərindən, məsələn, bacıdan, qardaşdan insana irsi xəstəlik keçə bilirmi?**

- Bəli, bu da mümkündür. Valideyndən irsən keçən neqativ enerji övladların birində xəstəlik yaradır. Bunun qarşısı alınmazsa, həmin adam ya xəstəlikdən, ya da hansısa qəzadan dünyasını dəyişir. Burada bir vacib məqamı da vurğulayım ki, qəza nəticəsində dünyasını dəyişən insanların həyatını araşdırdıqda məlum olur ki, onlar neqativ enerji ilə ağır formada yüklənmiş olurlar. Onların həyatını qaraldan da elə bu enerji olur. Bu şəxslər ömürlərini yarımçıq qoyduqdan sonra, ailədən bir nəfər bu hadisədən dərin sarsıntı keçirir. Bu, o şəxs olur ki, mərhumun bacı-qardaşlarından fiziki cəhətdən ən zəifi olur. Neqativ enerji canlı olduğundan, o, ailədə ən zəif halqanın üzərinə düşür və zənciri məhz bu halqadan qırmağa çalışır. Bundan sonra, ailənin həmin üzvündə sinir pozğunluqları, əsəb, qorxu, həyəcan və digər ağrılar baş qaldırır. Aparılan tibbi müalicələr effektsiz olur. Həmin şəxs daim qorxulu yuxular görür. Ən çox da ailənin cavan rəhmətə getmiş üzvünü görür. *Burada haşiyə çıxaraq, bildirim ki, insan rəhmətə getmiş birini tez-tez yuxuda görürsə, deməli, onun həyatına təhlükə var. Ölənin həyatında baş verənlər (xəstəlik və yaxud qəzalar), onu yuxuda görənin həyatında təkrarlana bilər.* Bu həm də onu göstərir ki, rəhmətə gedənin həyatını qaraldan neqativ enerji, artıq onu yuxuda görən şəxsə yüklənibdir. Zaman keçdikcə, həmin adam qəfil xəstəliyə tutula, yaxud, qəza keçirə bilər.





**- Belə halda nə etmək lazımdır ki, yuxu görən şəxs, ölənin taleyini yaşamasın?**

- Ölüləri yuxuda görən şəxs ilk növbədə ən azından iki yetim uşaq tapıb, onların qarnını doyuzdurmalıdır ki, bəladan uzaq olsun. Daha sonra atılacaq addım neqativ enerjidən təmizlənmək istiqamətində olmalıdır. İnsan, onu narahat edən qorxu, həyacan, ağrıları yaradan qara enerjidən birdəfəlik azad olmalıdır ki, gələcəkdə həyatına heç bir təhlükə olmasın və sağlam övladlar dünyaya gətirsin. *Neqativ enerjiyə yüklənmiş şəxsi üzərində bomba gəzdirən adama bənzətmək olar. Gec-tez bomba partlayacaq və həmin adamın həyatını bu və ya digər formada qaraldacaqdır.*

**- Doktor, bəs bu neqativ enerjidən necə qurtulmaq olar?**

-Bildiyimiz kimi, tibb elmində neqativ enerjiyə qarşı vasitə kəşf olunmayıb. Belə şəxslər bizə müraciət etdikdə, biz onlara öz yaratdığımız müalicə metodumuzu tətbiq edirik və cəmi 21 günə neqativ enerjidən təmizləyirik. Bundan sonra həmin enerji bir daha ailədə davam etmir və təhlükə yaratmır.

(moderator.az saytı)

## Mendeleyevin ölümündən sonra "Efir" elementi Dövri Sistemdən niyə çıxarıldı?

Mendeleyev sağ olarkən, onun tətərtib etdiyi Elementlərin Dövri Sistemi Cədvəlinin orjinalında "Efir" adlı element mövcud idi. 1906 ci ildə nəşr olunan "Kimyanın əsasları" kitabında (8-ci nəşr) Mendeleyevin əsl cədvəli salınmışdır (bax: aşağıdakı cədvələ:). Kimyəvi işarəsi "X" olan bu elementi Mendeleyev öz cəvəlində "Nyutoniy" adlandırmışdı. Cədvəlin yuxarı sol küncündə yerləşən bu maddə «Dünya efiri» idi. Cəvəldə "Efir", "Hidrogen"dən əvvəl yazılmışdı, sıfır qrupuna, sıfır sırasına daxil edilmiş yeganə element idi. Atom çəkisi 0,4 olan bu element yer üzərində hər yerdə mövcuddur. Bu maddə əsl enerji daşıyıcısıdır.

"Efir"in hissələri atomları, molekulları formalaşdırır, amma, kimyəvi reaksiyalarda iştirak etmir. Efir - maddənin bir hissəsidir (belə deyək ki, ruhudur, enerjisidir).

Mendeleyevin vəfatindan (1907) sonra, bəşəriyyətin tərəqqisini istəməyən qüvvələr cədvəl üzərində dəyişiklik edib, "Efir" elementini oradan xaric etdilər və 0 qrupunu ləgv etdilər. Beləliklə də, bir çox sirləri qizlətmiş oldular. Ona görə də müasir cədvəldə "Efir" görsənmir. Çünkü 0 qrupu mövcud deyil. Bu cür saxtalaşdırma kimya, fizika, biologiya elmlərinin gələcək inkişafına zərbə vurmaqla, sivilizasiyanın tərəqqisini dayandırdı. Hazırda məktəblərdə və Ali təhsil müəssisələrində Mendeleyev cədvəli tamamlanmamış, yarımçıq tədris olunur ki, bu da açıq saxtakarlıqdan başqa bir şey deyildir.



Xərçəngdən belə qurtuldum

## *"Efir" elementinin sirlərini bilən alimlər müəmmalı şəkildə öldürülürlər*

Tarixə nəzər yetirsək görərik ki, "Efir" elementinin sirlərindən bəşəriyyətin xeyrinə istifadə edən alimlər müəmmalı şəkildə öldürülüblər. Belə ki, bir çox alimlər bu sonsuz enerji maddəsinin cəmiyyətin xeyrinə tətbiq olunma variantlarını işləyiblər. Amma, hamısının sonu faciə ilə bitib. Bəşəriyyətin tərəqqisini istəməyən qüvvələr buna imkan verməyiblər. Məsələn, böyük alim Nikola Tesla (1856 – 1943) "Efir"dən energi alınmasının mümkünlüyünü sübut etdi. Alim bu elementin sirrini bilməklə, daimi işləyən mühərrik yaratdı. Daha sonra, enerjinin naqilsiz paylanmasını kəşf etdi. Bu da onun karyerasının sonunu gətirdi: qoca vaxtı hoteldə qaldığı otaqda müəmmalı şəraitdə ölü tapıldı. Dərhal onun otağından bütün əlyazmalarını, elmi işlərini kəşfiyyat xidməti (FBR) yoxa çıxardı.

Eynşteyn "Ümumi nisbilik nəzəriyyəsi"ni açıqlamaq üçün fiziki məkanı «Efir» adlandırmağı təklif etsə də, böyük güclərin (mafiyaların) nəzarətində olan və "elmlər akademiyası" adlanan qurum buna imkan vermədi. Ümumi nisbilik nəzəriyyəsinə əsasən, deyə bilərik ki, məkan - «Efir» olmadan ağlasığmazdır.

Elimlər akademiyası hələ də öz mövqeyində möhkəm dayanmaqa davam edir. "Efir" elementi ilə bağlı heç bir tədqiqat işi, elmlər akademiyaları tərəfindən qəbul edilmir. Çünki, bu mövzuya hansısa qüvvələr tərəfindən qadağa qoyulub. Misal üçün "daimi mühərriklərin" ixtirası baxlmır.

**Подлинная, нефальсифицированная Таблица Д. И. Менделеева**
**«Периодическая система элементов по группам и рядам»**
**(Д. И. Менделеев. Основы химии. VIII издание, СПб., 1906 г.)**

| | г р у п п ы   э л е м е н т о в | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|
| Ряды | 0 | I | II | III | IV | V | VI | VII | VIII |
| 0 | Ньютоний | | | | | | | | |
| 1 | Короний | Водород H 1,008 | — | — | — | — | — | — | |
| 2 | Гелий He 4,0 | Литий Li 7,03 | Бериллий Be 9,1 | Бор B 11,0 | Углерод C 12,0 | Азот N 14,01 | Кислород O 16,00 | Фтор F 19,0 | |
| 3 | Неон Ne 19,9 | Натрий Na 23,05 | Магний Mg 24,36 | Алюминий Al 27,1 | Кремний Si 28,2 | Фосфор P 31,0 | Сера S 32,06 | Хлор Cl 35,45 | |
| 4 | Аргон Ar 38 | Калий K 39,15 | Кальций Ca 40,1 | Скандий Sc 44,1 | Титан Ti 48,1 | Ванадий V 51,2 | Хром Cr 52,1 | Марганец Mn 55,1 | Железо Fe 55,9 Кобальт Co 59 Никель Ni 59 |
| 5 | | Медь Cu 63,6 | Цинк Zn 65,4 | Галлий Ga 70,0 | Германий Ge 72,5 | Мышьяк As 75 | Селен Se 79,2 | Бром Br 79,95 | |
| 6 | Криптон Kr 81,8 | Рубидий Rb 85,5 | Стронций Sr 87,6 | Иттрий Y 89,0 | Цирконий Zr 90,6 | Ниобий Nb 94,0 | Молибден Mo 96,0 | — | Рутений Ru 101,7 Родий Rh 103,0 Палладий Pd 106,5 |
| 7 | | Серебро Ag 107,93 | Кадмий Cd 112,4 | Индий In 115,0 | Олово Sn 119,0 | Сурьма Sb 120,2 | Теллур Te 127 | Иод I 127 | |
| 8 | Ксенон Xe 128 | Цезий Cs 132,9 | Барий Ba 137,4 | Лантан La 138,9 | Церий Ce 140,2 | — | — | — | — — — |
| 9 | | — | — | — | — | — | — | — | |
| 10 | — | — | — | Иттербий Yb 173 | — | Тантал Ta 183 | Вольфрам W 184 | — | Осмий Os 191 Иридий Ir 193 Платина Pt 194,8 |
| 11 | | | | | | | | | |
| 12 | — | — | Радий Ra 225 | — | Торий Th 232,5 | — | Уран U 238,5 | | |

**1906 ci ildə nəşr olunan "Kimyanın əsasları" kitabının 8-ci nəşrində Mendeleyev cədvəli**

Amma, hal hazırda bu istiqamətdə aktiv müzakirələr gedir. Bu mühərrik alimlər tərəfindən bir cox ölkələrdə yenidən işlənib. Hətta, Russiyada. İAE bazasında və digər bazalarda keçirilən ekspermentlərdə "Efir" elementindən istifadə olunub.

Yaponiyada yanacaqsız işləyən avtomobillərin istehsalına başlanacağı haqda məlumat verilib. 2008-ci ildə yanacaqsız çalışan və enerjisini "Efir"dən alan motossikl nümayiş etdirilib. Maraqlıdır ki, yenə də hansısa qüv-





vələr bu texnoloqiyaların həyata keçməsinə imkan vermədilər.

Müasir təssəvürdə "Efir" yuksək sıxlığa malik olan qaza bənzəyir. Elementin araşdırmasına Rusiya alimi Vladimir Ocukovskiy də xeyli əmək sərf edib. O, Texnika elimləri doktoru, Siyalkovski adana kosmik akademiyasinin üzvü, Rusiya akademiyasının fəxri üzvüdir.

Sual yaranır: bəs "Efir" elementi və onun faydaları niyə belə ciddi-cəhdlə bəşəriyyətdən gizlədilir?

Məncə səbəb odur ki, bu element Kainatın enerjisini, ruhunu təşkil edir. "Efir"in varlığını, onun sirrini bilmədən, Kaninatın, yaradılışın dərki mümkünsüzdür. Bu gün bəşəriyyəti istismar edən böyük güclərə insanların dərrakəli olması maraqlı deyil (ağıllı, dərrakəli insanı istismar etmək çətindir). Həmçinin, daimi işləyən mühərriklərin həyata tətbiq edilməsi enerji resurlarına nəzarət edən mafiyaların marağına uyğun deyildir. Bu səbəbdən də elmin inkişafına mane olmaqla, bu gün dünyada yarımçıq – inamsız, imansız dərrakəsiz bir kütlə formalaşdırıblar (bu səbəbdən hələ də meymundan yarandığına inanan düşüklər var).

### *"Efir" enerjisi bütün xəstəliklərin dərmanıdır*

Vacib bir məqamı da qeyd edək ki, Elementlərin Dövri Sistemindən "Efir"in çıxarılması kimya, fizika və biologiya elmlərinin inkişafının qarşısını aldığı kimi, eləcə də tibb elminə zərbə vurdu. Tibb elmi, adını çəkdiyim elmlərə bağlı olduğundan, onlar kimi, yarımçıq qaldı.

Təcrübəmiz göstərir ki, "Efir" elementinin sirlərini dərindən bilməklə, bundan bir çox sağalmaz xəstəlik-

lərin müalicəsində istifadə etmək mümkündür. Necə ki, Nikola Tesla bu sirləri kəşf etməklə, daimi işləyən mühəriki, enerjinin naqilsiz ötürülməsini ixtira etmişdi (təəssüf ki, bütün bunlar bəşəriyyətdən gizlədildi). Qeyd edək ki, bizim tətbiq etdiyimiz müalicə metodu da məhz bu sirlərə əsaslanır. İnsan bədənində toplanan və orqanların funksiyasını pozan, ağrılara, xəstəliklərə səbəb olan neqativ enerjini bədəndən məhz "Efir"in enerjisi ilə xaric etmək mümkündür. Bu sirlər tibb elminə məlum olmadığından, bir çox xəstəliklər müalicəsiz hesab edilir. Hansı ki, belə "müalicəsiz" xəstəliklərin çoxunu "Efir"lə müalicə edib, sağaltmaq mümkündür. Zaman keçdikcə insan oğlu dərk edəcək ki, "Efir"dən alınan enerji bütün xəstəliklərin dərmanıdır...

Nəzərinizə çatdırım ki, bu element istənilən adamda vardır. Sadəcə, bunu müalicəyə tətbiq etmək üçün sirləri bilmək lazımdır. Biz bu sirlərə uzun araşdırmalardan, tədqiqatlardan sonra vaqif olduq. Elə bu səbəbdəndir ki, tibb elminin müalicəsiz hesab etdiyi bir çox xəstəlikləri heç bir dərman tətbiq etmədən, "Efir" enerjisi ilə müalicə edirik.

***Məsələn, xərçəng, bütün növ qorxular, fobiyalar, depressiyalar, həzm sistemi xəstəlikləri, zərərli vərdişlərdən (narkomaniya, alkoqolizm və s.) xilas olmaq, uroloji xəstəliklər, autizm, onurğa xəstəlikləri, bütün növ depressiyalar, cinsi disfunksiyalar, hormon pozğunluqları, nevrozlar, sinir sistemi xəstəlikləri, yuxusuzluq, parkinson, şizofreniya, miqren, zob, mielit, masteniya, dağınıq skleroz, dəmirov və s. dəri zöhrəvi xəstəli kləri, sonsuzluq, kista, mioma, fibroma və s.***





## Miqren xəstələri məclislərə gedəndə özlərini niyə pis hiss edirlər?

Son dövrlər miqrendən əziyyət çəkən insanların sayı sürətlə artmaqdadır. Bu xəstəliyə kişilərə nisbətən qadınlarda daha çox rast gəlinir. Qadınların təxminən 20 faizi, kişilərin isə 8 faizi miqrendən əziyyət çəkirlər.

Əgər baş ağrılarınız krizlər halında ortaya çıxırsa, bu ağrı miqren ağrısı sayılır. Xəstəlik zamanı krizlər bəzi insanlarda ildə 1-2 dəfə, bəzilərində isə, ay ərzində dəfələrlə baş verə bilir. Əksər baş ağrıları isə, şiddətli formada baş verir. Miqren ağrılarının digər formalı baş ağrılarından fərqi isə, ürək bulanma, bəzən qaytarma və bəzən də səs, işıq və qoxulara olan həssaslığın müşahidəsidir.

Araşdırmalarımız göstərir ki, miqreni yaradan səbəb ətraf mühitdən gələn neqativ enerjilərdir. Bu enerji bəzən irisi yolla da keçir. Məsələn, hamiləlik dövründə anada miqren və yaxud, digər ağrılar, stress, əsəb olarsa, doğulan uşağa mütləq neqativ enerji yüklənir. Belə uşaqlar adətən əsəbi, inadkar, immuniteti zəif olurlar. Böyüdükcə, onlarda bir çox hallarda miqren də görünməyə başlayır.

Neqativ enerji insanda hormon dəyişikliyinə də səbəb olur ki, bu da öz növbəsində miqrenlə nəticələnir. Bu hal qadınlarda daha çox müşahidə edilir. Xüsusilə də menstruasiya zamanlarında ağrılar daha da şiddətlənə bilir. Həmçinin, ürək bulanması, qusma, işığa və səsə

həssaslıq da yarana bilər. Adətən basin bir tərəfində güclü ağrılar baş verir.

### Miqrenin əlamətləri

Miqrenin ən böyük əlaməti şiddətli ağrılardır. Hətta, bəzən o qədər güclü olur ki, xəstə yerindən qalxa bilmir. Miqrendəki baş ağrısı göz və ya gözün arxasında da hiss edilir. Alın, başın arxa tərəfi və qulağın arxası miqren ağrılarının ən çox hiss edilən nahiyələridir. Baş ağrıları ilə yanaşı depressiya, durğunluq, diqqət yayınması, danışan zaman yaranan çətinlik, daim yatmaq istəyi, qəbizlik, ishal da miqrenin əlamətlərindəndir. Ən çox rast gəlinən digər əlamət isə, qoxu, diksinmədir. Bütün bunlar miqreni yaradan və onunla birgə görülən əlamətlərdir.

### Miqren xəstələri məclislərə gedəndə özlərini niyə pis hiss edirlər?

Miqren xəstələri adətən məclislərə, toya, şənliklərə gedəndə ağrıları daha da şiddətlənir. Bu da aura ilə əlaqəlidir. Belə ki, miqren neqativ enerjidən yarandığı üçün, məclisdəki insanların bəzilərindən gələn mənfi enerji onu daha da körükləyir (alovlandırır). Çox parlaq və yanıb sönən işıqlar, həmçinin kəskin qoxular və iqlim dəyişiklikləri də miqreninizi artıra bilər. Bununla yanaşı psixoloji vəziyyətlər, qadınlardakı hormonal dəyişikliklər də öz təsirini göstərə bilir.





### Miqrenin müalicəsi

Yuxarıda qeyd etdik ki, miqreni yaradan səbəb neqativ enerjidir. Bu enerji başda və onurğada toplanaraq, sinir siteminə mənfi təsir göstərməklə, miqrenin yaranmasına gətirib çıxarır. Tibb elmində neqativ enerjiyə qarşı vasitə kəşf edilmədiyindən, ancaq ağrıkəsici və sakitləəşdirici vasitələrdən (kimyəvi pereparatlardan) istifadə edilir. Bunlar da ağrını bəzi hallarda müvəqqəti sakitləşdirsə də, çox hallarda effektsiz olur. Çünki, “fundament” (enerji) oduğu kimi qalır və bir müddətdən sonra təkrar baş qaldırır...

Bizim yaratdığımız elmi-lədun müalicə metodu isə, sırf neqativ enerjiyə qarşı yönəldilmişdir. Əvvəlki yazılarımda izah etdiyim kimi, neqativ enerjiyə qarşı ən yaxşı vasitə Efir enerjisidir.

Bu metodla bir neçə seansla miqreni yox etmək mümkündür. Bununla yanaşı onun bütün əlamətləri – depressiya, onurğa ağrıları, ürəkbulanma, qəbzlik və s. də yoxa çıxır.

**Paşa Yaqub,**
Psixoterapevt, elmi-lədun bilicisi
(moderator.az saytı)

## Son dövrlər xəstəliklərin sürətlə artmasının sirləri

Bu bir faktdır ki, sovet dönəmi ilə müqayisədə bu gün xəstəliklər həddən artıq artmışdır. Müqaisə etdiyimiz dövrdə hər rayonda bir, Bakıda isə, cəmi bir neçə xəstəxana vardı. Buna baxmayaraq, bu az sayda xəstəxanalar insanların sağllamlığını təmin edə bilirdilər. İndi isə, əksinə, xəstəxana və klinikaların sürətlə artmasına rəğmən, xəstəliklər də tüğyan etməkdədir.

***Sual olunur: son illər nə baş verir ki, cəmiyyətdə bu qədər xəstəlik yaranır?***

Bunun sirri ətraf mühitdə sürətlə yayılan neqativ enerjidir. Bu qara enerji insana daxil olaraq, hansı orqana toplanırsa, orada fəsad törədir. Klinikalarda bir orqandan onu qovurlar, iki aydan sonra başqa orqanda toplanıb, başqa xəstəliyin yaranmasına səbəb olur... Ona görə də xarici ölkələrdə (hətta, Avropa ölkələrində) illərlə sağala bilməyən xəstələr, bizim tətbiq etdiyimiz elmi-lədun seanslarla cəmi 21 günə sağalırlar və bir daha orqanizmdə xəstəlik (fəsad) baş vermir.

Araşdırmalarımız və həkimlik təcrübəmiz göstərir ki, neqativ enerji bütün xəstəliklərin özülünü (fundamentini) təşkil edir. Yəni, xəstəliyi binaya bənzətsək, onun fundamenti neqativ enerjidir. Xəstə həkimə müraciət edərkən onu diaqnostika aparatlarından keçirib, düzgün diaqnoz qoyurlar və “binanı” sökməyə başlayırlar. “Fundament”ə qədər “sökülmə” (müalicə) çox uğurla gedir.





Bura çatdıqda isə, müalicə dayandırılır. Çünkü, tibb elmi və diaqnostika aparatları neqativ enerjini təyin etməkdə acizdir. Beləliklə, xəstə özünü sağalmış hiss edir və aparatlar, analizlər də onun sağlamlığını təsdiq edir (bu, çayır bitkisinin gövdəsini kəsib, kökünü saxlamağa bənzəyir). Beləliklə, xəstə evə buraxılır. Lakin, “fundament” qaldığından az müddət keçəndən sonra xəstəlik bu və ya digər orqanda daha kəskin formada dirçəlməyə başlayır. Təbii ki, bu vaxt xəstənin beynindən keçən ilk fikir həkimlərin savadsızlığı, onu aldadaraq küllü miqdarda pulunu mənimsədikləri barədə olur. Ona görə də bir çox hallarda pasiyent təkrar həmin klinikaya yox, başqa bir klinikaya üz tutur və yenə də eyni halla qarşılaşır... Beləliklə karusel yaranır. Bu gün tibb müəssisələrində növbələrin yaranmasının sirri məhz budur.

Odur ki, həkimlik fəaliyyətimdə kimyəvi dərmanlarla müalicəyə yox, elmi-lədun metodu ilə “Efir” enerjisindən istifadə etməklə, orqanizmi neqativ enerjidən xilas etməyə üstünlük verirəm. Daha sonra, qara enerjinin yaratdığı fəsadları (xəstəlikləri) eyni qaydada aradan qaldırıram. Bu metodla qısa vaxtda istənilən xəstəlikdən qurtulmaq mümkündür.

**Dr. Paşa Yaqub**

***Müəlliflə əlaqə***
Dr.Paşa Yaqub
Psixoterapevt, elmi-lədun bilicisi

Tel: 050 (77) 375 30 97
whatsapp: 050 (77) 375 30 97
Youtube: Pasha Yaqub
Facebook.com paşa.yaqub

---

**Nəşriyyatın direktoru:** *Elman Qasımov*
**Dizayner:** *Azər Aydın*

Çapa imzalanmışdır: 19.07.2019. Formatı 84x108
Həcmi 2.5 ç.v. Sifariş № 29. Tiraj 1500

«Zərdabi Nəşr» MMC Nəşriyyat Poliqrafiya müəssisəsi
Tel: (012) 514-73-73, mob. (050; 070) 344 76 01
e-poçtu: zerdabi_em@mail.ru